Azərbaycan Respublikası Vergilər Nazirliyinin 26 yanvar 2017-ci il tarixli 1717040100084100 nömrəli əmri ilə təsdiq edilmişdir

# Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması və digər vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borcların ödənilməsi hesabına aid edilməsi QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması və digər vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borcların ödənilməsi hesabına aid edilməsi Qaydaları" (bundan sonra - Qaydalar) Azərbaycan Respublikasının Vergi Məcəlləsinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.02.2001-ci il tarixli 48 №-li Qərarı ilə təsdiq edilmiş "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinə qaytarılması Qaydaları"na və digər aidiyyəti hüquqi aktların tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydaların məqsədi artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının digər vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələr üzrə borcların ödənilməsi hesabına aid edilməsi və ya büdcədən qaytarılması prosesində vergi xidməti orqanları əməkdaşlarının hərəkətlərini müəyyən etmək və tənzimləməkdir.

1.3. Vergi ödəyicisi vergi hesabatı dövrü qurtardıqdan sonra 5 il ərzində düzgün tutulmamış və ya artıq ödənilmiş verginin, faizlərin və maliyyə sanksiyasının məbləğinin qaytarılmasını və ya əvəzləşdirilməsini tələb etmək hüququna malikdir.

1.4. Vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilmiş məbləğləri onların hesablanmış məbləğlərindən artıq olduqda artıq ödənilmiş məbləğlər:

1.4.1.1. Digər vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələr üzrə borcların ödənilməsi hesabına aid edilir;

1.4.1.2. Vergi Məcəlləsi ilə başqa hallar müəyyən edilməmişdirsə, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qalan məbləğləri vergi ödəyicisinin yazılı ərizəsinə əsasən 45 gün ərzində vergi ödəyicisinə qaytarılır.

1.5. Hesabat dövründə vergi tutulan dövriyyəsinin azı 50 faizi sıfır dərəcəsi ilə vergiyə cəlb olunan vergi ödəyicisinə, hesabat dövründə əvəzləşdirilən əlavə dəyər vergisi (bundan sonra - ƏDV) məbləğinin hesablanmış vergidən artıq olan hissəsi onun vergi orqanına ərizəsini verdiyi vaxtdan 20 gün ərzində qaytarılır. Digər vergi ödəyicilərinin əvəzləşdirilən vergi məbləğinin hesabat dövrü ərzində hesablanmış vergi məbləğindən artıq olan hissəsi növbəti 3 aya keçirilir və bu ayların ödəmələrinə aid edilməklə, vergi orqanı tərəfindən Vergi Məcəlləsində nəzərdə tutulan qaydada artıq ödəmələrin dürüstlüyü araşdırılır. Həmin 3 ay müddət bitdikdən sonra dürüstləşmənin başa çatdırılmasından asılı olmayaraq, vergi tutulan əməliyyatlardan yaranan artıq ödəmənin hər hansı qalığı vergi ödəyicisinin ərizəsinə əsasən 20 gün ərzində büdcədən qaytarılır.

1.6. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqaviləyə uyğun olaraq beynəlxalq təşkilatın, yaxud xarici hüquqi və ya fiziki şəxsin əvəzsiz köçürmələri ilə ödənilmiş malları alan və yaxud işlərin və ya xidmətlərin nəticələrini həmin əsaslarla əldə edən şəxs vergi orqanına elektron vergi hesab-fakturaları verərkən, həmin mallara, işlərə və ya xidmətlərə görə ödənilmiş ƏDV-ni vergi orqanına ərizə verdiyi vaxtdan 45 gün ərzində geri almaq hüququna malikdir.

## 2. Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması qaydaları

2.1. Forması Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən təsdiq edilmiş "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə

sanksiyalarının qaytarılması barədə” vergi ödəyiciləri tərəfindən təqdim edilmiş ərizələr həmin iş günü ərzində kameral vergi yoxlamasını aparan struktura təqdim edilir.

2.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrdə vergilərin aşağı dərəcəsi və ya vergilərdən tam azad olunma nəzərdə tutulduğu halda, xarici dövlətin rezidenti Vergi Məcəlləsinin 125-ci maddəsinə əsasən ödəmə mənbəyində tutulmuş vergi məbləğinin geri qaytarılması barədə ərizəni rezidentliyini rəsmi təsdiq edən sənədlər əlavə edilməklə, vergi agentinin qeydiyyatda olduğu vergilərin büdcəyə daxil olmasını təmin edən vergi orqanına təqdim etməlidir.

2.3. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilmiş vergi onların həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir.

2.4. Vergi Məcəlləsinin 220.10-cu maddəsində göstərilən fəaliyyətlə məşğul olan fiziki şəxslər tərəfindən ödənilmiş vergi onların “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz”in qüvvədə olduğu müddətdə fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti dövrlərin vergiləri ilə əvəzləşdirilmir.

## 3. Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılması barədə ərizədə səhvlərin olub-olmamasının araşdırılması

3.1. Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılması barədə ərizələrin araşdırılması həvalə edilmiş əməkdaş (bundan sonra - əməkdaş) 1 gün ərzində hər bir ərizədə aşağıdakı səhvlərin olub-olmamasını araşdırır:

3.1.1. Ərizədə vergi ödəyicisinin adının, VÖEN-nin və bank hesab(lar)ının göstərilib-göstərilməməsini;

3.1.2. Ərizənin vergi ödəyicisi tərəfindən imzalanıb-imzalanmamasını;

3.1.3. Hüquqi şəxslər tərəfindən təqdim edilmiş ərizənin vergi ödəyicisi tərəfindən möhürlənib-möhürlənməməsini.

3.2. Ərizədə vergi ödəyicisinin adının və ya VÖEN-nin göstərilməməsi aşkar edildikdə, əməkdaş həmin səhvi vergi orqanında olan məlumatlar əsasında aradan qaldırır.

3.3. Ərizədə vergi ödəyicisinin bank hesabı göstərilmədikdə, ərizə vergi ödəyicisi tərəfindən imzalanmadıqda və ya hüquqi şəxslər tərəfindən möhürlənmədikdə, növbəti iş günündən gec olmayaraq bu Qaydaların 1 №-li əlavəsində göstərilən forma üzrə məktub hazırlanır və bu səhvlərin aradan qaldırılması üçün vergi ödəyicisi vergi ödəyicilərinə xidmət strukturuna dəvət edilir.

## 4. Ərizədə aydın görünən səhvlərin olub-olmamasından asılı olaraq görülən tədbirlər

4.1. Təqdim edilmiş ərizədə bu Qaydaların 3.1.1-ci yarımbəndində göstərilən səhvlər aşkar edilmədikdə və ya vergi ödəyicisinin adı və ya VÖEN-i göstərilməmiş ərizələrdəki səhvlər vergi orqanında olan məlumatlar əsasında aradan qaldırıldıqdan sonra həmin ərizələrdə digər səhvlər olmadıqda, vergi ödəyicisinin iş qovluğu və şəxsi hesab vərəqəsi əsasında ərizənin sonrakı araşdırılmasına başlanır.

4.2. Bu Qaydaların 3.1.2-ci və 3.1.3-cü yarımbəndində göstərilən səhvlər aşkar edilmiş ərizələr üzrə həmin səhvlərin aradan qaldırılması barədə vergi ödəyicilərinə xidmət strukturunun məlumatı daxil olduqdan sonra, vergi ödəyicisinin iş qovluğu və şəxsi hesab vərəqəsi əsasında ərizənin sonrakı araşdırılmasına başlanır.

4.3. Ərizənin vergi orqanına daxil olduğu gündən 5 iş günü ərzində vergi ödəyicilərinə xidmət strukturuna dəvət edilmiş vergi ödəyicisi tərəfindən kənarlaşmaların aradan qaldırılması təmin edilmədikdə vergi ödəyicisinə bu Qaydaların 2 №-li əlavəsində göstərilən forma üzrə artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılmasından imtina edilməsi barədə məktub göndərilir.

4.4. Vergi ödəyicisi tərəfindən təqdim edilmiş ilkin müraciətdə aşkar edilən kənarlaşmalar aradan qaldırıldıqdan sonra düzəliş edilmiş yeni ərizə bu Qaydalara uyğun olaraq icraata yenidən qəbul edilir və kənarlaşma aşkar edilmiş əvvəlki ərizənin icrası AVİS-in Kargüzarlıq altsistemində "işə alınma xahiş etmə" əməliyyat növü vasitəsilə təmin edilir.

## 5. Ərizənin vergi ödəyicisinin iş qovluğu və şəxsi hesab vərəqəsi əsasında araşdırılması

5.1. Vergi ödəyicisinin iş qovluğu və şəxsi hesab vərəqəsi əsasında aşağıdakılar araşdırılır:

5.1.1. vergi ödəyicisi tərəfindən keçmiş dövrlər üzrə təqdim edilməmiş bəyannamələrin olub-olmaması;

5.1.2. təqdim edilmiş bütün bəyannamələr üzrə məlumatların vergi ödəyicisinin şəxsi hesab vərəqəsinə daxil edilib-edilməməsi.

5.2. Vergi ödəyicisi tərəfindən keçmiş dövrlər üzrə təqdim edilməmiş bəyannamələrin olması aşkar edildikdə, vergi ödəyicisinə bu Qaydaların 2 №-li əlavəsində göstərilən forma üzrə artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılmasından imtina edilməsi barədə məktub göndərilir.

5.3. Vergi ödəyicisi tərəfindən keçmiş dövrlər üzrə təqdim edilməmiş bəyannamələr olmadıqda əməkdaş təqdim edilmiş bəyannamələr üzrə məlumatların şəxsi hesab vərəqəsinə daxil edilməsinin düzgünlüyünü araşdırır. Təqdim edilmiş bəyannamələrlə şəxsi hesab vərəqəsi arasında kənarlaşmalar aşkar edildikdə, əməkdaş bu barədə strukturun rəhbərinə məlumat verir və onun yazılı göstərişinə əsasən kənarlaşmanı aradan qaldırır.

## 6. Vergi ödəyicisinin büdcəyə borcunun olub-olmamasının araşdırılması

6.1. Vergi ödəyicisinin iş qovluğu və şəxsi hesab vərəqəsi üzrə aparılan araşdırmadan sonra, əməkdaş hər bir vergi növü, faizlər, maliyyə sanksiyaları üzrə borc və artıq ödəmənin, eyni zamanda inzibati cərimələr üzrə borcun olub-olmamasını araşdırır.

6.2. Vergilər, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmə məbləğləri müəyyən edildikdə, həmin artıq ödəmə məbləğləri bu Qaydalara uyğun olaraq vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələr üzrə borcların məbləğləri ilə əvəzləşdirilir.

6.3. Artıq ödəmə məbləği borc məbləğləri ilə əvəzləşdirildikdən sonra 2 nüsxədə vergi ödəyicisinin şəxsi hesab vərəqəsindən çıxarış hazırlanır.

6.4. Artıq ödənilmiş vergilər, faizlər, maliyyə sanksiyaları digər vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borclarla əvəzləşdirildikdə, vergi ödəyicisinin tələbi ilə ona şəxsi hesab vərəqəsindən çıxarış və üzləşmə aktı verilir, habelə rübdə bir dəfə rüb başa çatdıqdan sonra 20 gün ərzində ona bildiriş göndərilir.

## 7. Artıq ödəmə məbləğləri borc məbləğləri ilə əvəzləşdirildikdən sonra vergi ödəyicisinin artıq ödəməsinin olub-olmamasından asılı olaraq görülən tədbirlər

7.1. Artıq ödəmə məbləğləri borc məbləğləri ilə əvəzləşdirildikdən sonra vergi ödəyicisinin artıq ödəməsi olmadıqda, vergi ödəyicisinə bu Qaydaların 2 №-li əlavəsində göstərilən forma üzrə artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılmasından imtina edilməsi barədə məktub göndərilir.

7.2. Artıq ödəmə məbləğləri borc məbləğləri ilə əvəzləşdirildikdən sonra vergi ödəyicisinin artıq ödəməsi olduqda, artıq ödəmənin yarandığı tarixdən 5 il müddətin keçib-keçməməsi araşdırılır.

## 8. Artıq ödəmənin yarandığı tarixdən beş il müddətin keçib-keçməməsindən asılı olaraq görülən tədbirlər

8.1. Artıq ödəmənin yarandığı tarixdən 5 il müddət keçdikdə, vergi ödəyicisinə bu Qaydaların 2 №-li əlavəsində göstərilən forma üzrə artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılmasından imtina edilməsi barədə məktub göndərilir.

8.2. Artıq ödəmənin yarandığı tarixdən 5 il müddət keçmədikdə, vergi ödəyicisinə qaytarılmalı olan artıq ödəmənin hansı vergi növü üzrə yaranması araşdırılır.

**9. ƏDV istisna olmaqla digər vergilər üzrə artıq ödəmə məbləğləri üzrə görülən tədbirlər**

ƏDV istisna olmaqla digər vergilər üzrə vergi ödəyicisinə qaytarılmalı olan artıq ödəmə məbləği olduqda, artıq ödəmənin yarandığı dövr üzrə səyyar vergi yoxlaması keçirilməsi barədə bu Qaydaların 3 №-li əlavəsində göstərilən forma üzrə səyyar vergi yoxlamasını aparan struktura müraciət edilir.

**10. ƏDV üzrə yaranmış artıq ödəmə məbləğləri üzrə görülən tədbirlər**

10.1. Artıq ödəmə məbləği ƏDV üzrə olduqda ilk növbədə artıq ödəmənin yaranma səbəbləri araşdırılır.

10.2. "0" dərəcə ilə ƏDV-yə cəlb edilən dövriyyənin ümumi dövriyyədəki xüsusi çəkisinin 50 faizdən çox olması hesabına artıq ödəmə yarandıqda, artıq ödəmənin yarandığı dövr üzrə səyyar vergi yoxlaması keçirilməsi barədə bu Qaydaların 3 №-li əlavəsində göstərilən forma üzrə səyyar vergi yoxlamasını aparan struktura müraciət edilir.

10.3. "0" dərəcə ilə ƏDV-yə cəlb edilən dövriyyənin ümumi dövriyyədəki xüsusi çəkisi 50 faizdən az olan halda, ƏDV üzrə artıq ödəmənin yaranmasından 3 ay müddətin keçib-keçməməsi araşdırılır.

10.4. Artıq ödəmənin yaranmasından 3 ay müddət keçmədikdə vergi ödəyicisinə bu Qaydaların 4 №-li əlavəsində göstərilən forma üzrə artıq ödəmənin qaytarılmasının təxirə salınması barədə məktub göndərilir və zərurət yarandıqda artıq ödəmənin yarandığı dövr üzrə səyyar vergi yoxlaması keçirilməsi barədə bu Qaydaların 3 №-li əlavəsində göstərilən forma üzrə səyyar vergi yoxlamasını aparan struktura müraciət edilir.

**11. Səyyar vergi yoxlamasının nəticələri üzrə görülən tədbirlər**

11.1. Səyyar vergi yoxlamasının nəticələrinə əsasən qaytarılmalı olan vəsait olmadıqda, vergi ödəyicisinə bu Qaydaların 2 №-li əlavəsində göstərilən forma üzrə artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılmasından imtina edilməsi barədə məktub göndərilir.

11.2. Səyyar vergi yoxlamasının nəticələrinə əsasən qaytarılmalı olan vəsait olduqda, artıq ödəmənin qaytarılması barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 04.09.2003-cü il tarixli İ-130 nömrəli əmri ilə təsdiq edilmiş forma üzrə maliyyə orqanına göndərilmək üçün rəy hazırlanır.

**12. Sənədlərin tərtibi və saxlanması**

12.1. "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması barədə təqdim edilmiş ərizədəki uyğunsuzluqlar barədə" məktub və "Vergi ödəyicisinin büdcəyə artıq ödəmələrinin qaytarılması barədə rəy" 4 nüsxədə, "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılmasından imtina edilməsi barədə" və "Artıq ödəmənin qaytarılmasının təxirə salınması barədə" məktublar 3 nüsxədə, vergi ödəyicisində səyyar vergi yoxlaması keçirilməsi barədə məktub 2 nüsxədə tərtib edilir.

12.2. Bu sənədlər əməkdaş tərəfindən tərtib olunur, strukturda qalan nüsxəsinə imza edilməklə AVİS proqram təminatı vasitəsilə aidiyyəti üzrə kameral vergi yoxlamasını keçirən struktura təqdim edilir.

12.3. Kameral vergi yoxlamasını keçirən aidiyyəti strukturun rəhbəri bu sənədlərin şöbədə və vergi orqanında qalan nüsxələrinə imza etməklə, vergi ödəyicisində səyyar vergi yoxlaması keçirilməsi barədə məktubu aidiyyəti struktura, digər sənədləri isə aidiyyəti üzrə göndərilməsi üçün koordinasiya strukturuna təqdim edir.

12.4. Koordinasiya strukturu kameral vergi yoxlamasını keçirən aidiyyəti struktur tərəfindən təqdim edilmiş sənədləri imzalanmaq üçün vergi orqanının rəhbərinə (rəhbərin müavininə) təqdim edir.

12.5. Bu sənədlər vergi orqanının rəhbəri (rəhbərin müavini) tərəfindən imzalandıqdan və vergi orqanının möhürü ilə təsdiq edildikdən sonra, vergi ödəyicisinə göndərilməli olan sənədlər koordinasiya strukturu tərəfindən poçt vasitəsi ilə aidiyyəti üzrə göndərilir.

12.6. "Vergi ödəyicisinin büdcəyə artıq ödəmələrinin qaytarılması barədə rəy"in, "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılmasından imtina edilməsi barədə" və "Artıq ödəmənin qaytarılmasının təxirə salınması barədə" məktubların vergi ödəyicisinə göndərilən nüsxələrinə vergi ödəyicisinin tələbi ilə şəxsi hesab vərəqəsindən çıxarış əlavə edilir.

12.7. "Vergi ödəyicisinin büdcəyə artıq ödəmələrinin qaytarılması barədə rəy"in 2 nüsxəsi məktubla maliyyə orqanına göndərilir.

12.8. "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması barədə təqdim edilmiş ərizədəki uyğunsuzluqlar barədə" məktubun, "Vergi ödəyicisinin büdcəyə artıq ödəmələrinin qaytarılması barədə rəy"in vergi ödəyicisinə və maliyyə orqanına göndərilməsi barədə məktubun, "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılmasından imtina edilməsi barədə" və "Artıq ödəmənin qaytarılmasının təxirə salınması barədə" məktubların bir nüsxəsi koordinasiya strukturunda saxlanılır.

12.9. "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması barədə təqdim edilmiş ərizədəki uyğunsuzluqlar barədə" məktubun bir nüsxəsi vergi ödəyicilərinə xidmət strukturuna verilir.

12.10. "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması barədə təqdim edilmiş ərizədəki uyğunsuzluqlar barədə" məktubun, "Vergi ödəyicisinin büdcəyə artıq ödəmələrinin qaytarılması barədə rəy"in vergi ödəyicisinə və maliyyə orqanına göndərilməsi barədə məktubun, "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılmasından imtina edilməsi barədə" və "Artıq ödəmənin qaytarılmasının təxirə salınması barədə" məktubların əməkdaş tərəfindən imzalanmış nüsxəsi kameral vergi yoxlamasını keçirən struktura verilir.

## 13. Artıq ödəmələrin qaytarılması ilə əlaqədar sənədlərin saxlanılması

13.1. Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılması ilə əlaqədar vergi ödəyicisindən daxil olmuş ərizə üzrə araşdırmalar başa çatdıqdan sonra əməkdaş tərəfindən "Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması barədə ərizələrin işlənməsinə nəzarət forması"nda müvafiq qeydlər aparılır.

13.2. Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması barədə ərizə və həmin ərizənin araşdırılması ilə əlaqədar hazırlanmış sənədlər kameral vergi yoxlamasını keçirən aidiyyəti strukturda açılmış ayrıca qovluğa tikilir.

## 14. Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının digər vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borcların ödənilməsi hesabına aid edilməsi qaydası

14.1. Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının digər vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borcların ödənilməsi hesabına aid edilməsi ilə bağlı aşağıdakı tədbirlər görülür:

14.1.1. Vergilər, faizlər və maliyyə sanksiyaları üzrə artıq ödəmə məbləğlərinin digər vergilərin, faizlərin, maliyyə sanksiyalarının və inzibati cərimələr üzrə borcların məbləğləri ilə əvəzləşdirilməsi üçün vergi ödəyicisinin şəxsi hesab vərəqəsində müvafiq məbləğlər üzrə borc və artıq ödəmə məbləğlərinin olub-olmaması araşdırılır;

14.1.2. Artıq ödənilmiş vəsaitlərin qaytarılması barədə vergi ödəyicisinin ərizəsinin daxil olduğu hallarda vergi orqanlarında artıq ödənilmiş vergilər, faiz və maliyyə sanksiyalarının digər vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc məbləğləri ilə əvəzləşdirilməsi aparılır, ərizənin daxil olduğu hallar istisna olmaqla, bütün digər hallarda artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının digər vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borc ilə əvəzləşdirilməsi ayda bir dəfə, hesabat ayının sonuncu iş günü aparılır.

14.1.3. Artıq ödənilmiş vəsaitlərin qaytarılması barədə vergi ödəyicisinin ərizəsinin daxil olduğu hallar istisna olmaqla, bütün digər hallarda artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının aparılmış araşdırılmalar nəticəsində şəxsi hesab vərəqəsində olan borc məbləğləri ilə əvəzləşdirilməsi hər bir vergi orqanında müvafiq struktur tərəfindən aparılır.

Azərbaycan Respublikası Vergilər Nazirliyinin
_________ 2017-ci il tarixli _______ nömrəli
əmri ilə təsdiq edilmiş Qaydalara

**Əlavə 1**

_________________________________________________ (VÖEN-i)_________________________
(vergi ödəyicisinin adı)
Ünvanı ___________________________________________________________________________

**Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması barədə təqdim edilmiş ərizədəki uyğunsuzluqlar barədə**

MƏKTUB № ___________

_________________________________________________ ___________________
(Vergi orqanının adı) (tarix)

Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması barədə Sizin "___" "____________" 20___-ci il tarixli ərizəniz _________________tərəfinizdən araşdırılarkən aşağıdakı uyğunsuzluqlar aşkar edilmişdir:

1.________________________________________________________________________________
2.________________________________________________________________________________
3.________________________________________________________________________________

Yol verilmiş uyğunsuzluq və çatışmazlıqların aradan qaldırılması üçün 5 gün ərzində Vergi ödəyicilərinə xidmət strukturuna gəlməyiniz xahiş olunur.

(Telefon № _______________)

___________________ rəhbəri (rəhbərin müavini) ______________ ____________________________
vergi orqanının adı (imza) (soyadı, adı, atasının adı)

Azərbaycan Respublikası Vergilər Nazirliyinin
_________ 2017-ci il tarixli _______ nömrəli
əmri ilə təsdiq edilmiş Qaydalara

**Əlavə 2**

**Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılmasından imtina barədə**

______________________________________________

(vergi ödəyicisinin adı)

______________________________________________

(VÖEN)

______________________________________________

(Ünvan)

**Sizin artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması barədə**

"___" ________ 20___-ci il tarixli ərizəniz aşağıdakı səbəblərdən icra olunmamışdır:

1. ______________________________________________

2. ______________________________________________

3. ______________________________________________

________________ rəhbəri (rəhbərin müavini) _________ ______________________________

vergi orqanının adı (imza) (soyadı, adı, atasının adı)

Azərbaycan Respublikası Vergilər Nazirliyinin
_________ 2017-ci il tarixli _______ nömrəli
əmri ilə təsdiq edilmiş Qaydalara

**Əlavə 3**

**Səyyar vergi yoxlamasının aparılması barədə**

Səyyar vergi yoxlamasını aparan struktura
Artıq ödənilmiş vəsaitlərin qaytarılması ilə əlaqədar __________________________________
(vergi ödəyicisinin adı)
__________________________(VÖEN __________) ərizəsinin araşdırılması zamanı 20____ ilin "________" ayından 20_____ ilin "________" ayınadək olan dövr üzrə vergi ödəyicisinə qaytarılmalı vəsaitin məbləğinin _______ manat təşkil etdiyi müəyyən edilmişdir.
Göstərilənlərlə əlaqədar olaraq ___________________________________________________
(vergi ödəyicisinin adı)
(VÖEN ___________) artıq ödəmənin yarandığı dövr üzrə səyyar vergi yoxlaması aparılmasını və büdcədən qaytarılmalı vəsaitlərin məbləğinin dəqiqləşdirilməsini xahiş edirəm.

Kameral vergi yoxlamasını keçirən strukturun rəhbəri ______________________________
(imza)
______________________________________________________________________________
(soyadı, adı, atasının adı)

Azərbaycan Respublikası Vergilər Nazirliyinin
_________ 2017-ci il tarixli _______ nömrəli
əmri ilə təsdiq edilmiş Qaydalara

**Əlavə 4**

**Artıq ödəmənin qaytarılmasının təxirə salınması barədə**

________________________________________________________________

(vergi ödəyicisinin adı)

________________________________________________________________

(VÖEN)

________________________________________________________________

(Ünvan)

Artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının büdcədən qaytarılması ilə əlaqədar Sizin "___" ________ 20___-ci il tarixli ərizənizlə əlaqədar bildiririk ki, qaytarılması tələb olunan ƏDV üzrə "__" "_______" 20__ il tarixə yaranmış artıq ödəmənin yarandığı hesabat dövrü ərzində "0" (sıfır) dərəcə ilə vergiyə cəlb olunan dövriyyənizin ümumi dövriyyədəki xüsusi çəkisi 50%-dən aşağı olduğu və artıq ödəmənin yarandığı tarixindən 3 ay müddət keçmədiyi üçün həmin artıq ödəmə növbəti 3 aya keçirilir.
Bu müddət bitdikdən sonra artıq ödəmənin hər hansı qalığı qanunvericilikdə nəzərdə tutulmuş qaydada Sizə qaytarılacaqdır.

________________rəhbəri (rəhbərin müavini) __________ ________________________
vergi orqanının adı (imza) (soyadı, adı, atasının adı)